*Azərbaycan Respublikası təhsil*
*nazirinin 27.09.2018-ci il tarixli,*
*F-673 nömrəli əmrinə 2 nömrəli əlavə*

**Tədris planına dair qeydlər**

1. I-IV (birinci-dördüncü) siniflərdə dərsdənkənar məşğələlərə ayrılan saatlar dərs cədvəlinə daxil edilməklə "Rus dili"nin intensiv tədrisinə verilmişdir.

2. V-VII (beşinci-yeddinci) siniflərdə "İkinci xarici dil"ə və dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat, IX (doqquzuncu) sinifdə "İkinci xarici dil"ə ayrılan 1 (bir) saat və dərsdənkənar məşğələlərə ayrılan 2 (iki) saat dərs cədvəlinə daxil edilməklə "Rus dili"nin intensiv tədrisinə verilmişdir.

3. VIII sinifdə "İkinci xarici dil"ə ayrılmış 1(bir) saat və dərsdənkənar məşğələlərə ayrılan 2 saatdan 1(bir) saatı dərs cədvəlinə daxil edilməklə "Rus dili"nin intensiv tədrisinə verilmişdir.

4. VIII sinifdə dərsdənkənar məşğələlərə ayrılan 2 saatdan 1(bir) saatı dərs cədvəlinə daxil edilməklə "Qarabağın tarixi" fakültativ kursun tədrisinə ayrılır.

5. "Rus dilinin intensiv tədrisi" layihəsi həyata keçirilən I-IX (birinci-doqquzuncu) siniflərdə rus dili fənninin tədrisinin səmərəli təşkili məqsədilə sinifdə şagirdlərin sayı 20 (iyirmi) və daha çox olarsa, həmin fənnin tədrisində siniflər iki qrupa bölünür (dərsdənkənar məşğələlərdən verilən saatlar istisna olmaqla).

6. Bu əmrlə müəyyən edilmiş Bakı şəhərinin 13, 95, 238, 245, 265, 276 nömrəli ümumtəhsil məktəblərində 2018-2019-cu dərs ilində "Rəqəmsal bacarıqlar"pilot layihəsi həyata keçirildiyindən həmin məktəblərin V-VI siniflərində "Rus dili" fənni "İkinci xarici dil"ə ayrılmış saat hesabına həftədə 1 (bir) saat tədris edilir.